# MÜSTƏQİL AUDİTORUN HESABATI № FrFnKddXDZ

**"Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya"**

**Publik Hüquqi Şəxsin İdarə Heyətinə**

## Şərti Müsbət Rəy

Biz "Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya" PHŞ-in 31 dekabr 2020 və 31 dekabr 2021-ci il tarixlərinə maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq. Hesab edirik ki, hesabatımızın "Şərti Müsbət Rəy üçün əsaslar" bölməsində əks etdirilən məsələnin nəticələri istisna olmaqla, əlavə edilmiş maliyyə hesabatları Publik Hüquqi Şəxs 31 dekabr 2020 və 31 dekabr 2021-ci il tarixlərinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartları (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

## Şərti Müsbət Rəy üçün əsaslar

Publik Hüquqi Şəxsin muhasibat uçotunun aparılmasında, muhasibat uçotunun proqramlaşmasında, əsas vəsaitlərin uçotunun aparılmasında, vergilərin düzgün hesablanmasında, nizamnamə kapitalının formalaşmasında (nizamnamə kapitalının muhasibat uçotunda əks etdirilməsində), habelə audit zamanı qanuna müvafiq qaydada bəyannamələrin və hesabatların düzgün hazırlanmasında və təqdim edilməsində qismən problemlərin mövcudluğu müşahidə olunmuşdur. Hesab edilir ki, Publik Hüquqi Şəxsin muhasibat uçotunun aparılmasında, muhasibat uçotunun proqramlaşmasında, əsas vəsaitlərin uçotunun aparılmasında, vergilərin düzgün hesablanmasında, nizamnamə kapitalının formalaşmasında (nizamnamə kapitalının muhasibat uçotunda əks etdirilməsində), habelə audit zamanı qanuna müvafiq qaydada bəyannamələrin və hesabatların düzgün hazırlanmasında və təqdim edilməsində qismən problemlərin mövcudluğunun müşahidə olunması Publik Hüquqi Şəxsin maliyyə vəziyyətinə əhəmiyyətli təsir etmir ( şərti müsbət rəy müvafiqdir).
Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Publik Hüquqi Şəxsdən asılı deyilik və digər etik öhdəliklərimizi bu tələblərə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.


Ünvan: Bakı ş. AZ 1065. İnşaatçılar pr., 42/42
Tel./Faks: +994 12 436 96 75 Mob: +994 50 743 30 06
E-mail: audit@lbconsulting.az www.lbconsulting.az

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Publik Hüquqi Şəxsi ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Publik Hüquqi Şəxsin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Publik Hüquqi Şəxsin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkar edir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tədbiq edirik və peşəkar şəffaflıq nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübütlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Publik Hüquqi Şəxsin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiriririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Publik Hüquqi Şəxsin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq.

Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Publik Hüquqi Şəxsin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Biz həmçinin iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalarına riayət etmişik.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimayyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat verməni̇n mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatımızda təsvir edirik.

**"L.B. Audit Xidməti" MMC**
**("Leading Edge Alliance"-ın müstəqil üzvü)**

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyət L.B. AUDIT XIDMƏTI Limited Liability Company Azerbaijan Republic

**L. Bayramova**
**Direktor-auditor**

**Ünvan: İnşaatçılar Pr. 42/42, AZ1065, Bakı, Azərbaycan**

**24 fevral 2023-cü il**

"Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya" PHŞ

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
**31 Dekabr 2021-ci il tarixinə**

Azərbaycan manatı ilə

| | Qeyd | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| *Uzunmüddətli aktivlər* | | | |
| Əmlak və avadanlıqlar (Əsas vəsaitlər) | 6 | 97,422 | 68,566 |
| Daşınmaz əmlaka investisiyalar | | | |
| Qeyri-maddi aktivlər | 7 | 4,684 | 4,684 |
| Kapitallaşma | 8 | 85,066 | |
| Sair uzunmüddətli aktivlər | 10 | 1,000,000 | 1,000,000 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **1,187,172** | **1,073,250** |
| *Qısamüddətli aktivlər* | | | |
| Ehtiyatlar | 9 | 43,335 | 22,886 |
| Qısamüddətli debitor borcları | 11 | 23,140 | 11,427 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 12 | 318,925 | 227,526 |
| **Cəmi qısamüddətli aktivlər** | | **385,400** | **261,839** |
| **CƏMİ AKTİVLƏR** | | **1,572,572** | **1,335,089** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| Ödənilməmiş nizamnamə kapitalı | 13 | 1,000,000 | 1,000,000 |
| Digər ehtiyatlar | | | |
| Emissiya gəliri | | | |
| Geri alınmış kapital (səhmlər) | | | |
| Kapital ehtiyatları | 14 | 241,577 | 96,136 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 14 | 310,175 | 185,405 |
| **CƏMİ KAPİTAL** | | **1,551,752** | **1,281,541** |
| **Öhdəliklər** | | | |
| *Uzunmüddətli öhdəliklər* | 17 | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **0** | **0** |
| *Qısamüddətli öhdəliklər* | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | - | - |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | - | - |
| Qısamüdətli kreditor borcları | 18 | 7,023 | 48,860 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 16 | 13,797 | 4,688 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **20,820** | **53,548** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **20,820** | **53,548** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **1,572,572** | **1,335,089** |

**24 fevral 2023-cü il tarixində Publik Hüquqi Şəxsin İdarə Heyəti tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır**

*E.Səfərli*
*İdarə Heyətinin Sədri*

*K.Rəhimov*
*İqtisadiyyat şöbəsinin müdiri*

**09-19-cu səhifələrdə verilmiş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.**

"Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya" PHŞ

## MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABAT

**31 Dekabr 2021-ci il tarixinə**

Azərbaycan manatı ilə

| | Qeyd | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|
| Qeyri birja əməliyyatlarından gəlir (büdcədən) | 19 | 2,600,805 | 1,309,928 |
| Təqdim edilən əsas vəsaitlərin dəyəri | 19 | 14,455 | |
| **Cəmi gəlirlər** | | **2,615,260** | **1,309,928** |
| Büdcədənkənar | 20 | 16,000 | |
| **Cəmi gəlirlər** | | **2,631,260** | **1,309,928** |
| **Xərclər:** | | | |
| İnzibati xərclər | 25 | -2,357,849 | -1,028,387 |
| **Cəmi xərclər** | | **-2,357,849** | **-1,028,387** |
| **Ümumi mənfəət (zərər)** | | **273,411** | **281,541** |
| Sair əməliyyat xərcləri | | | |
| Mənfi məzənnə fərqi | 29 | | |
| **Əməliyyat mənfəəti (zərəri)** | | **273,411** | **281,541** |
| Vergidən azad olan gəlirlər üzrə xərclər | 26 | 2,357,849 | 1,028,387 |
| Vergidən azad olan gəlirlər | 26 | -2,615,260 | -1,309,928 |
| Vergiyə cəlb olunan mənfəət | 28 | 16,000 | |
| Mənfəət vergisi xərci | 28 | -3,200 | |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 28 | **270,211** | **281,541** |
| **Kapital ehtiyatına yönəldilmişdir** | 28 | **-145,441** | **-96,136** |
| **Bölüşdürülməmiş mənfəət** | 28 | **124,770** | **185,405** |
| **Mənfəətdə iştirak payı:** | | - | - |
| **Səhmlərin sayı:** | | - | - |
| **Səhmin qiyməti:** | | - | - |
| **Cəmi səhmdarın kapitalı:** | | - | - |

**24 fevral 2023-cü il tarixində Publik Hüquqi Şəxsin İdarə Heyəti tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır**

**E.Səfərli**
*İdarə Heyətinin Sədri*

**K.Rəhimov**
*İqtisadiyyat şöbəsinin müdiri*

**09-19-cu səhifələrdə verilmiş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.**

"Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya" PHŞ

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

**31 Dekabr 2021-ci il tarixinə**

Azərbaycan manatı ilə

| | Qeyd | Nizamnamə Kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|---|---|
| **1 yanvar 2020-ci il tarixə qalıq** | | **0** | **0** | **0** | **0** |
| 2020-ci il üzrə xalis mənfəət (zərər) | 13/28 | 1,000,000 | | 185,405 | **1,185,405** |
| Kapital ehtiyatları | 14/28 | | 96,136 | | **96,136** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | |
| Elan edilmiş dividendlər | | | | | |
| Əvəzləşdirilməyən xərclər | | | | | |
| **31 dekabr 2020-ci il tarixə qalıq** | | **1,000,000** | **96,136** | **185,405** | **1,281,541** |
| Nizamnamə Kapitalı | | | | | |
| 2021-ci il üzrə xalis mənfəət (zərər) | 14/28 | | | 124,770 | **124,770** |
| Kapital ehtiyatları | 14 | | 145,441 | | **145,441** |
| Digər ehtiyatlar | | | | | |
| Elan edilmiş dividendlər | | | | | |
| **31 dekabr 2021-ci il tarixə qalıq** | | **1,000,000** | **241,577** | **310,175** | **1,551,752** |

**24 fevral 2023-cü il tarixində Publik Hüquqi Şəxsin İdarə Heyəti tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır**

*E.Səfərli*
*İdarə Heyətinin Sədri*

*K.Rəhimov*
*İqtisadiyyat şöbəsinin müdiri*

**09-19-cu səhifələrdə verilmiş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.**

"Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya" PHŞ

**PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 dekabr 2021-ci il tarixinə**

| | Qeyd | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|
| | | | Azərbaycan manatı ilə |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Hesabat dövründə xalis mənfəət /zərər | 28 | 273,411 | 281,541 |
| Mənfəət vergisi üzrə xərclər | 28 | -3,200 | |
| Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər: | | | |
| Kapitallaşma | 8 | -85,066 | |
| Əsas vəsaitlərin amortizasiyası | 6 | 17,335 | 0 |
| Əsas vəsaitlərin satışından və xaric olmasından gəlirlər/zərərlər | | - | - |
| Qeyri-maddi aktivlərin amortizasiyası | 7 | | 0 |
| **Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər:** | | | |
| Ehtiyatlar üzrə artma/azalma | 9 | -20,449 | -22,886 |
| Debitor borcları üzrə artma/azalma | 11 | -11,713 | -11,427 |
| Cari vergi öhdəlikləri üzrə artma/azalma | 16 | 9,109 | 4,688 |
| Əməliyyat kreditor borcları və hesablaşmalar | 18 | -41,837 | 48,860 |
| ***Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | | **137,590** | **300,776** |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin alınması | 6 | -46,191 | -68,566 |
| Qeyri-maddi aktivlərin alınması | 7 | | -4,684 |
| Xaric olmuş əsas vəsaitlərin qalıq dəyəri | | | |
| Daşınmaz əmlaka yönəldilən investisiyalar üzrə fərq | | | |
| Alınmış faiz şəklində pul vəsaitlərinin daxilolmaları | | | |
| **Investisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **-46,191** | **-73,250** |
| *Məzənnə fərqi* | | | |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti** | | | |
| İnvestisiya | | | |
| Kapital ehtiyatları | 30 | | |
| Ödənilmiş dividendlər | | | |
| Təxirə salınmış gəlirlər | | | |
| ***Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti*** | | **0** | **0** |
| ***Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması)*** | | **91,399** | **227,526** |
| ***İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları*** | 12 | **227,526** | **0** |
| ***İlin sonuna pul vəsaitləri və bank overdraftları*** | 12 | **318,925** | **227,526** |
| ***İl ərzində artım/azalma*** | | **91,399** | **227,526** |

**24 fevral 2023-cü il tarixində Publik Hüquqi Şəxsin İdarə Heyəti tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır**

***E.Səfərli***
***İdarə Heyətinin Sədri***

***K.Rəhimov***
***İqtisadiyyat şöbəsinin müdiri***

**09-19-cu səhifələrdə verilmiş qeydlər hazırkı maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsidir.**